**“KREDIT EVİ” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**Hər birinin nominal dəyəri 1000 manat olan 5000 ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların**

# BAZA EMİSSİYA PROSPEKTİ

**2024**

Qeyd: Azərbaycan Respublikası Mərkəzi Bankı bu Baza Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

**Bakı – 2024**

Baza Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və

Baza Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

**BƏYANAT**

Biz, aşağıda imza edənlər,

1.Bu Baza Emissiya Prospektini tərtib etməzdən öncə "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

2.Hər birinin nominal dəyəri **1000 manat olan 5000 ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların** Baza Emissiya Prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

"Kredit Evi" ASC-nin Direktoru

Bağırov Elşad Ramazan oğlu:

___________________________

*(imza)*

"Kredit Evi" ASC-nin Direktor müavini

Məmmədov Emin Fariz oğlu:

___________________________

*(imza)*

*Tarix: 22.11.2024*

M.Y.

AZƏRBAYCAN RESPUBLİKASI "KREDİT EVİ" ASC
"KREDİT EVİ" OJSC AZERBAIJAN REPUBLIC

**Mündəricat**


B Ə Y A N A T........ 2

XÜLASƏ........ 4

Xəbərdarlıq........ 4

Anlayışlar........ 4

1. Emitent haqqında məlumat........ 5

2. Qiymətli kağızlar haqqında məlumat........ 6

3. Risk Faktorları........ 8

4.Təklif........ 9

5. İstiqrazların emitenti barədə tələb olunan məlumat........ 11

5.1. Emitentin auditorları barədə məlumat........ 11

5.2. Seçilmiş maliyyə məlumatı........ 12

5.3. Emitent barədə məlumat........ 12

5.4. BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.Emitentin biznesinin icmalı........ 13

5.5. Digər təçkilatlarda iştirak........ 14

5.6. Tendensiyalar barədə məlumat........ 14

5.7.Gəlir proqnozu........ 14

5.8. Emitentin idarəetmə və nəzarət orqanları........ 15

5.9. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər........ 18

5.10. Emitentin maliyyə məlumatları........ 18

6. Emitent haqqında əlavə məlumatlar........ 28

7. İstiqrazlar haqqında ümumi məlumat........ 29


*Qeyd: Baza Emissiya Prospektinin mətnində "Kredit Evi" ASC emitent adları altında çıxış edir.*

## XÜLASƏ

**Xəbərdarlıq.**
Bu sənəd Baza Emissiya Prospektinin giriş hissəsidir.
İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar verməzdən əvvəl bu Baza Emissiya Prospektini (informasiya memorandumunu) oxuduqdan sonra həyata keçirilməlidir.
Baza Emissiya Prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Baza Emissiya Prospektini hazırlamış şəxslər mülki məsuliyyəti daşıyırlar.

### Anlayışlar

- **Nəzarət orqanı** – Azərbaycan Respublikasının Mərkəzi Bankı.
- **Qiymətli kağızlar bazarı** – qiymətli kağızların emissiyası, buraxılması, tədavülü, ödənilməsi, mülkiyyətçiliyi, saxlanılması, kompensasiyası, öhdəliklərlə yüklənməsi, tənzimlənməsi və digər əməliyyatların həyata keçirilməsi üzrə subyektlər arasında olan hüquqi və iqtisadi münasibətlərin məcmusu;
- **İstiqraz** – İstiqraz emitentin istiqraz mülkiyyətçisinə borclu olduğunu təsdiqləyən və şərtlərindən asılı olaraq, müəyyən edilmiş tarixdə faiz (kupon) və ya diskont və əsas məbləği ödənilən borc investisiya qiymətli kağızıdır;
- **Faiz ödənişi (və ya kupon)** – istiqrazlar üzrə investorlara ödənilən faiz məbləğidir. Kuponlar istiqrazın nominal dəyərindən hesablanır və faizlə göstərilir;
- **Emitent** – İstiqrazların emissiyasını həyata keçirən hüquqi şəxs. Emitent buraxdığı qiymətli kağızların mülkiyyətçisi deyildir. Emitent qanunda nəzərdə tutulan məhdudiyyətlər nəzərə alınmaqla geri aldığı qiymətli kağızların mülkiyyətçisi kimi çıxış edir;
- **İnvestor** – qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin alıcısı və ya onları almaq təklifini verən şəxs;
- **Anderraytinq** – emitentin və ya üçüncü şəxslərin xeyrinə qiymətli kağızların kütləvi təklifi və yerləşdirilməsi üzrə investisiya xidməti;
- **Marketmeyker** –qiymətli kağızlar bazarında mütəmadi olaraq öz hesabına və fond birjası ilə razılaşdırılmış qiymət dəhlizi çərçivəsində özünün müəyyənləşdirdiyi qiymətlərlə qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin alqı-satqısını həyata keçirən hüquqi şəxs;
- **Fond birjasının listinqi** – fond birjasının daxili qaydaları ilə müəyyən edilmiş tələblərə əsasən fond birjasında ticarətə qəbul edilən qiymətli kağızların siyahısı;
- **Mərkəzi depozitar** – onun üzvləri olan investisiya şirkətləri və investisiya fondunun depozitarları ilə birlikdə depozitar sistemini təşkil edən və həmin sistemi idarə edən maliyyə bazarlarına nəzarət orqanının təsis etdiyi qeyri-kommersiya hüquqi şəxsidir;
- **Depo hesabı** – mərkəzi depozitarın üzvünün müraciəti əsasında müştəri üçün mərkəzi depozitarda açılmış və özündə müştərinin qiymətli kağızlarına olan hüquqlara dair qeydləri əks etdirən hesab.

**1.Emitent haqqında məlumat**

**1.1. Emitentin tam adı:** "Kredit Evi" Açıq Səhmdar Cəmiyyəti

**1.2. Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Bakı şəhəri, Nərimanov rayonu, Akademik Həsən Əliyev 90A. "Kredit Evi" Açıq Səhmdar Cəmiyyəti. Azərbaycan Respublikası.

**1.3. Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:** Hazırki dövrdə, Lombard və Lizinq bazarının əsas iştirakçılarından biri olan "Kredit Evi" ASC-də bazara əsas təsir edən valyuta və portfel riski qənaətbəxş şəkildə idarə olunur. Belə ki təşkilatın portfelində baza emissiya prospektinin hazırlandığı tarixə valyuta riski yaradacaq kreditlər yoxdur və kredit portfelinin əksər hissəsi milli valyutada formalaşdırılmışdır

**1.4. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Mövcud deyil

**1.5. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Gəlir proqnozu mövcud deyil.

**1.6. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:** Biz "Baker Tilly Azerbaijan" CJSC, "KreditEvi" Acıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 30 dekabr 2023-cü il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlirlər haqqında hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq. Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**1.7. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:** Aşağıdakı cədvəldə 2021, 2022 və 2023-cü illər üzrə maliyyə məlumatları təqdim edilmişdir və qeyd olunan maliyyə hesabatları audit edilmişdir .

| Göstəricilər | 2023 | 2022 | 2021 |
|---|---|---|---|
| **Mənfəət/Zərər (vergidən sonra)** | 1,517,814 | 1,360,700 | 589,477 |
| **Cəmi öhdəliklər** | 30,729,473 | 26,182,410 | 20,628,305 |
| **Cəmi kapital** | 503,087 | 599,343 | 153,969 |
| **Cəmi aktivlər** | 31,232,560 | 26,781,753 | 20,782,274 |
| **Pul vəsaitləri** | 374,457 | 189,149 | 226,426 |

**1.8. Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:**
Səhm qoyulması və banklardan cəlb edilmiş vəsaitlər(kreditlər)

| **Göstəricilər:** | **2023** | **2022** | **2021** |
|---|---|---|---|
| **Səhm buraxılışı:** | 2,000 | - | - |
| **Müddətli borc vəsaitləri:** | 4,744,425 | 5,167,868 | 1,943,263 |

**1.9. Emitentin əsas fəaliyyətlərinin təsviri:** "Kredit Evi"ASC Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müştərilərə aşağıdakı xidmətləri təqdim edir:
-Maliyyə Lizinqi
-Lombard

**1.10. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti:** "Kredit Evi" ASC-nin səhmlərinin 50%-i Kazım Hüseynova, 50%-i Səbuhi Əzizova məxsusdur. Cəmiyyətin ali idarəetmə orqanı onun Səhmdarlarının Ümumi Yığıncağıdır. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60 % (altmış) səhmə malik olan Səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır.

**2.Qiymətli kağızlar haqqında məlumat**

**2.1. İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar

**2.2. İstiqrazların valyutası:** Azərbaycan manatı

**2.3. İstiqrazlar ilə təsbit olunan məhdudiyyətlər:** Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

**2.4. İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

İstiqrazın sahibi aşağıdakı hüquqlara malikdir:
- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda istiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən illik 17% (on yeddi faiz) olmaqla, istiqrazların tədavül müddəti ərzində faiz almaq;
- Emitentin ləğvi, yaxud yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**2.5. İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin nəyin əsasında hesablanması üsulu, həmin əsas barədə məlumat və onun müəyyən olunmasının mənbələri:**
İstiqrazların nominal dəyəri 1000 (min) Manat və faiz ödənişi nominal dəyərdən hesablanmaqla 17% (on yeddi faiz) təşkil edir.

İstiqrazların əsas məbləğinin ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 5 (beş) il təşkil edir.

İstiqrazlar üzrə faizlər (kupon) buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən hər 1 (bir) aydan bir (ayda günlərin sayı 30 (otuz) götürülməklə) olmaqla 5 (beş) il müddətində ödəniləcəkdir. Əgər faiz (kupon) ödənişinin tarixi qeyri-iş gününə təsadüf edərsə, növbəti ilk iş günü ödəniş baş tutacaqdır. İstiqrazların nominal dəyəri sonuncu faiz ödənişi ilə birlikdə ödəniləcəkdir.

**2.6. Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:**

İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**2.7. İstiqrazların geri satın alınma şərtləri:**

İstiqrazların emitent tərəfindən geri satın alınması nəzərdə tutulmur.

**2.8. Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:**

İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:
TF = N*D*G/360
burada,
TF- Bir istiqraz üzrə toplanmış faizlər (Manat ilə ifadə olunur);
N - Bir istiqrazın nominal dəyəri (1 000 (min) Manat);
D - İstiqrazların illik faiz dərəcəsi (17 (on yeddi faiz);
G - İstiqrazlar üzrə son faiz (kupon) ödənişindən sonra keçən günlərin sayı (bir ayda 30 gün olduğunu qəbul etmək şərti ilə).

**2.9. İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:**

Mövcud deyildir.

**2.10. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:**

İstiqrazlar təmin edilməmiş formada təklif edilir.

**2.11. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri.**

İstiqrazların ilkin yerləşdirilməsi rəqabətli hərrac formasında kütləvi təklif üsulu ilə "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların listinqə daxil olması ilə bağlı müraciət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir

• dövlət qiymətli kağızları bazarı

• korporativ qiymətli kağızlar bazarı

• törəmə maliyyə alətləri bazarının Ticarətə buraxılmanın şərtləri "Bakı Fond Birjasında" qiymətli kağızların listinqə daxil olması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili" və "Bakı Fond Birjasında qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə ticarətin təşkili və keçirilməsi" Qaydaları əsasında tənzimlənir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Emissiya prospekti qeydiyyata alınıb, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

BFB-nin fəaliyyəti AR Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**3.Risk Faktorları**

**3.1. Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları aşağıdakılardır:**

• *valyuta riski - valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;*
• *faiz riski - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;*
• *inflyasiya riski - pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;*
• *likvidlik riski - müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;*
• *əməliyyat riski - daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;*
• *hesablaşma və kontragent riski - hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;*
• *kredit riski - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;*
• *təbii - insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s. risklər);*

**3.2. Emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:** *Fazi riski – Requlyator tərəfindən faiz dərəcələrinin maksimum həddinə məhdudiyyətlərin qoyulması nəticəsində yaracaq itki riski:

*Kredit riski – qızılın qiymətinin kəskin şəkildə aşağı düşməsi ilə əlaqədar, borcalan tərəfindən öhdəliklərin yerinə yetirilməməsi fonunda girovların realizasiyası zamanı əldə olan vəsaitin öhdəliyin bağlanmasını təmin edə bilməməsi nəticəsində yaranan itki riski;

*Əməliyyat riski – daxili porseslər və insan faktorundan yarana bilən itki riskləri. Bu risk faktorunun idarə edilməsi məqsədi ilə "Kredit Evi" ASC-də Daxili Audit və Daxili nəzarət strukturları yaradılmışdır. Bu strukturlar vasitəsi ilə gündəlik əməliyytalara bir başa nəzarət təşkil olunur.

*Devalivasiya riski - müştərilərimizin öhdəliklərnin kəskin artması və ödəmə qabiliyyətinin kəskin zəifləməsi, maliyyə bazarında durğunluğun yaşanması və pul axınının azalması əsas risk faktorlarındandır.

## 4.Təklif

**4.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Emissiyadan əldə olunan vəsait "Kredit Evi" ASC-nin kredit portfelinin artırılmasına və mənfəətin əldə edilməsindən ibarətdir. Qeyd edilən məqsəddən əlavə digər hər hansı səbəb mövcud deyildir..

**4.2. Təklifin şərtlərinin təsviri: Yerləşdirmənin başlanma və başa çatma tarixi:** Istiqrazlar kütləvi təkliflə hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. Istiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter va digər birja üzvləri sifarişlərin qabul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-ya təqdim edir. Investorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Istiqrazların dəyəri pulla ödənilir va bu pul vəsaiti hərrac günündən gec olmayaraq, investorlar tərəfindən Emitentin "Paşa Bank" ASC-da açdığı müvəqqəti cari hesaba köçürülür. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir va hərracın keçirilməsinə an azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) va Emitentin internet saytında (www.kreditevi.az) açıqlanır. İstiqrazların yerləşdirilməsi Baza emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsi ilə həyata keçiriləcəkdir. Istiqrazların listinqa daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Baza emissiya prospekti qeydiyyata alınıb, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Yerləşdirmə Qanunvericiliklə nəzərdə tutulan müddətdə başa çatacaqdır.

**4.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat:**

**Fond birjası**

Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcək istiqrazlarının listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000-ci ilin 21 iyul tarixində Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. Bakı Fond Birjasının (BFB) missiyası qiymətli kağızların ticarətinin təşkilini və bağlanmış əqdlərin effektiv icrasını təmin edən ticarət sisteminin formalaşdırılması və inkişaf etdirilməsidir. BFB-nin strateji baxışı Maliyyə alətlərinin qabaqcıl texnologiyalar əsasında likvid, şəffaf və ədalətli ticarətini təşkil etməklə çevik investisiya imkanları təklif edən etibarlı və dayanıqlı təşkilata çevrilməkdir.

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Qiymətli Kağızlar Bazarı haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi normativ aktları və BFB-nin nizamnaməsi və Daxili Qaydaları ilə tənzimlənir.

**Mərkəzi depozitar**
Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsidir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır. İstiqrazların yerləşdirilməsi prosesində MDM-in vəzifələrinə aşağıdakılar daxildir:

- qiymətli kağızların saxlanması və uçotunun aparılması;
- qiymətli kağız mülkiyyətçilərinin hesablarının uçotunun aparılması;
- qiymətli kağızlar və onların mülkiyyətçilərinin hesabları üzrə elektron sistemin təşkilinin və aparılmasının təmin edilməsi;
- qiymətli kağız mülkiyyətçilərinin reyestrinin aparılması;
- nominal saxlayıcıların hesablarının uçotunun aparılması;
- qiymətli kağızların öhdəliklərlə yüklənməsinin qeydiyyatı;
- öz üzvlərinə, emitentlərə, fond birjalarına, kliring təşkilatlarına bu Qanunun 17-ci maddəsində nəzərdə tutulan vəzifələrlə əlaqədar xidmətlərin göstərilməsi;
- müştərilərin sorğusu əsasında hesablarından çıxarışların və aparılmış əməliyyatlar haqqında məlumatların verilməsi;
- "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş vəzifələr.

**Anderrayterlər**
İstiqrazların emissiyası prosesində əsas anderrayter qismində "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC çıxış edəcəkdir. Aşağıda qeyd edilən lisenziyalı investisiya şirkəti anderrayter kimi Hərrac zamanı investorlardan sifarişləri qəbul edə biləcəkdir. Anderrayter istiqrazları öhdəlik götürmədən yerləşdirəcəkdir.

❖ **"PAŞA Kapital İnvestisiya Şirkəti" QSC**
Lisenziya nömrəsi: İSN/L-640/2016, 088806
Lisenziya verilmə tarixi: 09.03.2016
Ünvanı: Bakı, Lev Tolstoy küçəsi 170, AZ1095
VÖEN: 1402281511
Tel: (+ 994 12) 493-33-66 | (+ 994 12) 493-33-88
Email: info@pashacapital.az
www.pashacapital.az

**Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:**Mövcud deyil

## 4.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:

İstiqrazlar üzrə faiz ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. Hüquqi şəxs olan istiqraz mülkiyyətçilərinin istiqrazlar üzrə faiz gəlirindən Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 123-cü maddəsinə müvafiq olaraq

ödəniş mənbəyindən 10 (on) faiz vergi tutulur (Vergi Məcəlləsinin 123.1-ci maddəsində nəzərdə tutulan şəxslər istisna olmaqla.)
Bununla yanaşı, Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən, 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində yalnız kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə müvafiq olaraq ödənilən dividend, diskont və faiz gəlirləri vergidən azad olunur, Yəni, istiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən tutulan vergidən fiziki şəxslər 2028-ci ilin fevral ayının 1-dək azaddırlar.
İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.
İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:

Xərclər:
Bakı Fond Birjası - əqdin həcmindən 0.02%
Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
İnvestisiya şirkətləri – investisiya şirkəti ilə investor arasında bağlanmış müqavilə əsasında;
Bank köçürmə xərcləri – bankdan aslı olaraq dəyişir.

**İstiqraz buraxılışları haqqında malumat:**
Bu Baza Emissiya Prospekti çərçivəsində hər birinin nominal dəyəri 1000 (min) Manat olan cəmi 5000 (beş min) istiqraz buraxılacaqdır.

## 5.İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT

### 5.1. Emitentin auditorları barədə məlumat

**5.1.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| Maliyyə ili | Auditorun adı | Ünvanı | Audit təşkilatında üzvlüyü barədə məlumat |
|---|---|---|---|
| 2023 | BAKER TİLLY AZERBAİJAN | CİTY POİNT BAKU, C.MƏMMƏDQULUZADƏ KÜÇƏSİ, EV 102A | BAKER TİLLY İNTERNATİONAL |
| 2022 | BAKER TİLLY AZERBAİJAN | CİTY POİNT BAKU, C.MƏMMƏDQULUZADƏ KÜÇƏSİ, EV 102A | BAKER TİLLY İNTERNATİONAL |
| 2021 | BAKER TİLLY AZERBAİJAN | CİTY POİNT BAKU, C.MƏMMƏDQULUZADƏ KÜÇƏSİ, EV 102A | BAKER TİLLY İNTERNATİONAL |

**5.1.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi baş verməyib.

**5.2. Seçilmiş maliyyə məlumatı**

**5.2.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

| Göstəricilər | 2023 | 2022 | 2021 |
|---|---|---|---|
| Xalis Mənfəət/Zərər | 1,517,814 | 1,360,700 | 589,477 |
| Cəmi öhdəliklər | 30,729,473 | 26,182,410 | 20,628,305 |
| Cəmi kapital | 503,087 | 599,343 | 153,969 |
| Cəmi aktivlər | 31,232,560 | 26,781,753 | 20,782,274 |
| Pul vəsaitləri | 374,457 | 189,149 | 226,426 |

**5.3. Emitent barədə məlumat**

**5.3.1. Emitentin tam adı, təşkilati-hüquqi forması:**

**5.3.2. Emitentin dövlət qeydiyyatının rekvizitləri:** 15.03.2017-ci il tarixində Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmışdır. VÖEN: 1602863891

**5.3.2.1. Qeydiyyata alındığı tarix:** 15.03.2017-ci il

**5.3.2.2. Dövlət qeydiyyat nömrəsi (VÖEN):** 1602863891

**5.3.3. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** "Kredit Evi" məhdud məsuliyyətli cəmiyyət olaraq 05.07.2019-cu il tarixində məhdud məsuliyyətli cəmiyyət hüquqi formasından qapalı səhmdar cəmiyyəti təşkilati hüquqi formasına çevrilmişdir. 07.09.2023-cü il tarixində qapalı səhmdar cəmiyyəti hüquqi formasından açıq səhmdar cəmiyyəti təşkilati hüquqi formasına çevrilmişdir.

**5.3.4. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları: Telefon və digər əlaqə vasitələri:** Bakı şəhəri, Nərimanov rayonu, Ak. Həsən Əliyev ev 90

**5.3.5. Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):**Mövcud deyil

**5.3.6. İdarəetmə orqanlarının Emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri ilə bağlı məlumat:** Hal-hazırda yeni investisiya layihələri mövcud deyil.

**5.3.7. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:**

Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətində yerləşdiriləcəkdir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tərixli "fond birjası fəaliyyati"—ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə

maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB Qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarəti təşkil edir.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasaməl rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)
Elektron poçt ünvanı: info@bse.az
Internet şəbəkəsində rəsmi səhifəsi: www bse.az Tel: (+99412) 539 72 49

**5.4. BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlər bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.Emitentin biznesinin icmalı**

**5.4.1. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:** Emitentin əsas fəaliyyətlərinin təsviri aşağıdakı kimidir:: Azərbaycan Respublikasının Qanunvericiliyinə, Emitentin Səhmdarlarının və müştərilərinin maraqlarına zidd olmayan Maliyyə lizinqi və Lombard kreditlərinin verilməsini həyata keçirmək.

Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) verilmiş kreditlərin məbləği

| **Göstəricilər** | **2023** | **2022** | **2021** |
|---|---|---|---|
| **Maliyyə lizinqi** | 7,189,531 | 2,618,729 | 338,927 |
| **Lombard krediti** | 47,173,455 | 49,558,951 | 37,525,149 |

Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) verilmiş kreditlərin sayı

| **Göstəricilər** | **2023** | **2022** | **2021** |
|---|---|---|---|
| **Maliyyə lizinqi** | 43,575 | 44,831 | 16,696 |
| **Lombard krediti** | 455 | 133 | 28 |

**5.4.2. Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:** Hal-hazırda yeni məhsul təqdim edilməmişdir.

**5.4.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri:** "Kredit Evi" ASC lombard və lizinq bazarında fəaliyyət göstərir. Lombard bazarında şirkətin rəqibləri müvafiq məhsul təklif edən Banklar, BOKT-lər və lombard fəaliyyəti ilə məşğul olan şirkətlərdir. Cari ildə lombard kreditləri üzrə bazarda rəqabət daha da artmış və faiz dərəcələrinin azalması və müştərilər üzrə LTV (loan to Value) əmsalının artması ilə kredit təklifləri artmışdır. Qeyd etmək istərdik ki, Şirkət rəqabət mühitini daim diqqətdə saxlayır və mütəmadi olaraq bazarda rəqiblərin təklifləri təhlil olunaraq məhsul və xidmətlərə dəyişikliklər edilir. Qeyd edilən risklərin azaldılması üçün Şirkət öz fəaliyyəti üzrə coğrafi diversifikasiya edərək filial şəbəkəsini genişləndirmiş və filial şəbəkəsini regionlarda artırmışdır. Şirkətin fəaliyyət göstərdiyi digər istiqamət lizinq istiqamətidir. Bu istiqamətdə də həm filial şəbəkəsinin böyüklüyü, şirkətin formalaşmış imici və partnyor avtosalonlarla əməkdaşlıq şirkətin rəqabət qabiliyyətini artırır. "Kredit Evi" ASC-də kredit portfelinin diversifikasiya tədbirlərini həyata keçirmək strateji məsələlərdəndir. Bu tədbirin həyata keçirilməsi zamanı müştəri istəkləri çevik nəzərə alınır və təklif olunan məhsul

və xidmətlərdə müvafiq müştəri yönümlü dəyişikliklər edilir. Bu strateji amillər sayəsində kredit portfelinin keyfiyyətli və risksiz idarə olunmasına nail olunur.

**5.4.4. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması:** Rəqabət mövqeyinə dair bəyanat mövcud deyildir.

**5.5. Digər təşkilatlarda iştirak**

**5.5.1. Emitentin digər hüquqi şəxslərdə qısa təsviri:** Mövcud deyil

**5.5.2. Emitent daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi.** Mövcud deyil

**5.6. Tendensiyalar barədə məlumat**

**5.6.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişiklik olmadığı barədə məlumat:** Mənfi dəyişiklik baş verməyib.

**5.6.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:** Azərbaycanda lizinq üzrə qanunvericilik keçən əsrin 90-cı illərində qüvvəyə minsə də, 2003-cü ildən etibarən lizinq bazarı inkişaf etməyə başlamışdır. 2003-2008-ci illər ərzində lizinq şirkətlərinin portfelində hər il artım müşahidə edilmiş, lakin 2008-ci ildən bəzi güzəştlərin və imtiyazların dayandırılması ilə Azərbaycanın lizinq bazarında geriləmə müşahidə edilmişdir. Hazırda lizinq haqqında nəzərdə tutulan yeni qanunun qəbulu lizinq bazarının daha sürətlə inkişaf etməsi üçün güzəştlərin tətbiq olunmasını və yeni tənzimlənmə mexanizmlərini müəyyənləşdirəcəkdir. Vahid qanun əsasında müvafiq normativ-hüquqi baza formalaşdırılacaq və lizinq şirkətlərinin fəaliyyəti üçün daha əlverişli şərait yaradılacaqdır. Şirkət maliyyə lizinqi bazarında rəqabət aparır. Emitent daşınar və daşınmaz əmlakların maliyyə lizinqinə verilməsi sahəsində fəaliyyət göstərir. Bu sahəyə təsir edən tendensiya satış baxımından kredit faiz dərəcələri və daşınar və daşınmaz əmlakların qiymətlərindəki dəyişkənliklər, lizinq ödənişləri baxımından isə lizinqalanların ödəmə qabiliyyətidir.

**5.7. Gəlir proqnozu**

**5.7.1.1. Emitent öz mülahizəsinə əsasən emissiya prospektinə, aşağıdakı bəndlərin tələblərinə uyğun, gəlir proqnozu barədə məlumatı emissiya prospektinə əlavə edir:** Mövcud deyil

**5.7.1.2. Emitent tərəfindən müəyyən edilən və proqnozun əsasını təşkil edən əsas fərziyyələr haqqında hesabat. Hesabatda emitentinin idarə heyətinin təsir edə biləcəyi və həmçinin idarə heyətinin təsirindən kənarda olan amillər və fərziyyələr arasındakı fərq aydın şəkildə göstərilməlidir:**Mövcud deyil

**5.7.1.3. Gəlir proqnozunun emitentin uçot siyasətinə uyğunluğu haqqında müstəqil auditorun hesabatı gəlir proqnozuna əlavə edilməlidir:**Mövcud deyil

**5.7.1.4. Gəlir proqnozu və ya hesablaması keçmiş maliyyə məlumatları ilə müqayisə edilə bilən əsasda hazırlanmalıdır:** Mövcud deyil

**5.7.1.5. Emissiya prospektinə əvvəl dərc olunmuş gəlir proqnozu daxil edildikdə, həmin proqnozun emissiya prospektinin tərtib olunması tarixinə etibarlılığı barədə məlumat təqdim edilməlidir:** Mövcud deyil

## 5.8. Emitentin idarəetmə və nəzarət orqanları

**5.8.1. Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:**

adı, soyadı, atasının adı, funksiyaları, xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:

| **Səhmdarlar barədə məlumat :** | | | |
|---|---|---|---|
| **S.A.A.** | **Vəzifəsi** | **Vəzifəsi Funksiyaları** | **Xidməti vəzifələri ilə şəxsi maraqlar arasında ziddiyyət yarana biləcək hallarda maraqların toqquşması barədə hesabat:** |
| Hüseynov Kazım Hətəmxan oğlu | Səhmdar | Cəmiyyətin Nizamnaməsini və nizamnamə kapitalının miqdarını dəyişdirmək; Cəmiyyətin Müşahidə Şurasının üzvlərini seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək; Cəmiyyətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək; Cəmiyyətin illik hesabatlarını, maliyyə hesabatlarını təsdiq etmək, mənfəətini və zərərini bölüşdürmək; Mənfəətin bölüşdürülməsi və zərərin ödənilməsi qaydalarını müəyyən etmək; Mülki Məcəllənin 49-1.2-ci və 99.3-cü maddələrində nəzərdə tutulmuş əqdlərin bağlanması haqqında qərar qəbul etmək; Cəmiyyətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək. | AR Mülki Məcəlləsinin 107-10.5 maddəsinə əsasən Cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə bu Məcəllənin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda, səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər. Cəmiyyətin maraqlarına zidd olan əqdlərin bağlanılması, müvafiq olaraq, bu Məcəllə, "Banklar haqqında" və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları ilə ayrı qayda nəzərdə tutulmamışdırsa, müvafiq idarəetmə orqanının qərarı əsasında həyata keçirilə bilər. |
| Əzizov Səbuhi Məmmədsani oğlu | Səhmdar | | |

| **Emitentin Müşahidə Şurası barədə məlumat :** | | | |
|---|---|---|---|
| **S.A.A.** | **Vəzifəsi** | **Vəzifəsi Funksiyaları** | **Xidməti vəzifələri ilə şəxsi maraqlar arasında ziddiyyət yarana biləcək hallarda maraqların toqquşması barədə hesabat:** |
